# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

**Bakı şəhəri** **№ 277/2** **04 iyul 2016-cı il**

**Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyasına dair metodik göstərişə dəyişikliklər edilməsi barədə**

"Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnaməyə, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa və Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.12-ci "Auditorların və auditor təşkilatlarının akkreditasiyası və qeydiyyat işlərinin mövcud qanunvericiliyə uyğun olaraq təkmilləşdirilməsi" bəndinə uyğun olaraq, Auditorlar Palatası Şurasının 2014-cü il 27 dekabr tarixli 259/1 saylı qərarı ilə təsdiq edilmiş "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyasına dair metodik göstəriş"ə mövcud qanunvericiliyə uyğun olaraq təklif olunan dəyişiklikləri müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyasına dair metodik göstəriş"də "lisenziya" sözü ismin müvafiq hallarında "icazə" sözü ilə əvəz edilsin.

2. Metodik göstərişin 1.1-ci bəndi aşağıdakı redaksiyada verilsin:

Bu metodik göstəriş "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanunundan, "Azərbaycan Respublikasının Auditorlar Palatası haqqında" Əsasnamədən, "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunundan və Auditorlar Palatasının 2016-cı il üzrə iş planının 1.12-ci bəndindən irəli gələn vəzifələrin icra olunmasının təmin edilməsi məqsədilə hazırlanmışdır.

3. Metodik göstərişin 2.2-ci bəndi aşağıdakı yeni redaksiyada verilsin:

"Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 22-ci "Lisenziyanın və icazənin müddəti" maddəsinə əsasən, sərbəst auditorlar və auditor təşkilatları dövlət qeydiyyatına alındıqdan sonra "Auditor xidməti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq 5 il müddətinə verilən icazə əsasında fəaliyyət göstərirlər.

4. Metodik göstərişin 2.4-cü bəndi aşağıdakı redaksiyada verilsin:

İcazənin verilməsi "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununa əsasən müəyyən edilir.

5. Kadr hazırlığı, akkreditasiya və beynəlxalq əlaqələr idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, bu metodik göstərişin tətbiqi üzrə müvafiq işlərin həyata keçirilməsini təmin etsin.

6. Bu qərarın, auditorların və auditor təşkilatlarının qeydiyyatına və akkreditasiyasına dair metodik göstərişin dəyişikliklər edilmiş variantının Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**